SİYASİ ROMAN



# ARTUR KÖSTLER

# GÖZQAMAŞDIRICI ZÜLMƏT

tərcümə ədəbiyyatı

Artur Köstler

# Gözqamaşdırıcı zülmət

«Hadaf Neshrleri»

**Köstler A.**

Gözqamaşdırıcı zülmət / A. Köstler — «Hadaf Neshrleri»,

Bu əsərin maraqlı taleyi var, belə ki, əvvəlcə "Rubaşov" adlı alman dilində olan əlyazması itkin düşür. Xoşbəxtlikdən onda "Günorta çağı zülmət" adlanan ingiliscəyə tərcümə olunmuş versiyası hazır idi. Fransızca bu əsər "Sıfır və sonsuzluq" adı ilə məşhurdur, əlinizdə tutduğunuz bu kitab isə ruscadan ("Слепщая тыма") tərcümə olunduğu üçün adı eynilə saxlanılıb. Artur Köstler (1905-1983) çətin, faciəvi çalarlarla dolu ömür yaşayıb. Milliyyətcə yahudi olan Köstler Budapeştdə doğulub, uşaqlıq və gənclik illərini Macarıstan, Avstriya və Almaniyada keçirib. Jurnalist kimi Avropa məşhurluğunu hələ gənc ikən əldə edib: 1926-29-cu illər arası alman nəşrlər birliyi "Ulştayn"ın Yaxın Şərqdəki müxbiri olaraq çalışır, 1929-30-cu illər arası isə Parijdə işləyir. Köstler 1931-ci ildə "Qraf Çeppelin" dirijablında Şimal qütbünə səyahət edən yeganə avropalı jurnalistdir. Yazıçı 1930-cu illərin ortalarında Mərkəzi Asiyaya, Sovetlər İttifaqına, eləcə də Azərbaycana uzunmüddətli səfər edir. Artur Köstlerin uzun illər qabaq yazılmış "Gözqamaşdırıcı zülmət" romanı elə bu gün üçün də böyük maraq kəsb edir. Roman Sovet İttifaqı ölkələrinin daxili həyatının xaricdə necə qəbul olunduğuna, sosialist ölkələri və yeganə dünyəvi kommunist hərəkatının Stalin terroru nəticəsində yaranan beynəlxalq imicinə ətraflı işıq salır, bu rejimin iç üzünü göstərir.

© Köstler A.
© Hadaf Neshrleri

**Artur Köstler**
**Gözqamaşdırıcı zülmət**
**(roman)**

Kitabın bütün personajları müəllif tərəfindən uydurulub. Onların davranışlarını müəyyənləşdirən tarixi şərait həyatdan götürülüb. N.Z.Rubaşovun taleyi "Moskva prosesləri" adlandırılmış hadisələrin qurbanı olan bir neçə insanın həyatının ümumiləşdirilməsidir. Müəllif onlardan hansılarısa şəxsən tanıyırmış. Bu kitab həmin insanlara həsr olunub.

Parij, oktyabr 1938 – aprel 1940.

Diktator, Brutu öldürən və respublikanın qurucusu deyil, heç Brutun oğullarını öldürən və müvəqqəti idarə edən də deyil.

Makiavelli, "Söhbətlər".

Mərhəmətli hökmdar, mərhəmətli hökmdar, axı istənilən insanın onun bağışlanacağı bir yeri olmalıdır.

Dostoyevski, "Cinayət və cəza".

**Birinci sorğulama**

"İstənilən hökmdar qanla ləkələnib."

Sen-Jüst

**1**

Kameranın qapısı cingiltiylə cırıldadı.

Rubaşov kürəyini qapıya dirədi, bir neçə saniyə belə dayanıb siqaret yandırdı. Sağ tərəfdəki dar yatacaqda iki ədəd yuyulmuş adyal və içinə təzə saman doldurulmuş döşək vardı. Solda yerləşən su kranından su damır, pas dəmir rakfinanı korlayırdı. Rakfinanın yanında unitaz vardı, onu təzəlikcə dezinfeksiya etmişdilər; ondan xlor iyi gəlirdi. Kərpic divarlar səsi udurdular, amma istilik sisteminin borularını tıqqıldadıb səs çıxarmaq olardı, bəlkə də olardı, çünki borular da səskeçirməz idi. Pəncərə göz hündürlüyündən başlayırdı və o, barmaqlığın yuxarı hissəsindən yapışmadan da həbsxananın həyətini görə bilirdi. Nəticəyə gəldi ki, hər şey qaydasındadır.

Rubaşov əsnəyib paltosunu soyundu, büküb yatağın baş tərəfinə qoydu. Sonra diqqətlə həyətə baxdı. Ay və fənərlərin işığı qarı mavi-sarımtıl rəngə boyayırdı. Divarların ətrafında təmizlənmiş cığır uzanırdı, deməli, burada gəzintiyə icazə verilirdi. Səhərə hələ çox vardı; fənərlərin parlaqlığına baxmayaraq, səmada ulduzlar buz kimi və aydın parlayırdı. Onun kamerasıyla üzbəüz çöl divarın dar girişində növbətçi sanki paraddakı kimi gəzişirdi: yüz addım irəli, yüz addım geri. Arada fənərlərin sarı işığı onun silahının ucunda parlayırdı.

Elə pəncərənin yanındaca ayaqqabısını soyundu. Yorğun halda yatağa çökdü, ayaqqabını siqaret kötükləri topasının üstünə qoydu və bir neçə dəqiqə beləcə tərpənmədən oturdu. Sonra durub yenə pəncərəyə yaxınlaşdı. Həbsxananın həyəti sakit və kimsəsiz görünürdü; növbətçi növbəti döngəsindən qayıdırdı, yuxarıda növbətçi qülləsi fonunda Süd Yolunun çıxıntısı gümüşü rəngə çalırdı. Nəhayət, o uzandı, ayaqlarını büküb lap üstdəki adyal ilə möhkəm örtdü. Saatı beşi göstərirdi, çətin ki, burada məhkumları yeddidən tez oyatsınlar, xüsusilə də qışda. Yuxulayarkən düşündü ki, onu üç və ya dörd gün ərzində hələ sorğulamağa çağırmayacaqlar. Pensnesini çıxarıb döşəməyə qoydu, gülümsəyərək gözlərini yumdu. Ona isti və çox rahat idi, xeyli aydan sonra ilk dəfə yuxuqabağı yaranan qorxunu hiss etmədən yata bilirdi.

Gözətçi kameraya girmədən işığı yandırıb qapının dəliyindən baxanda, keçmiş Xalq Komissarı Rubaşov kürəyi divara çevrilmiş və sol əlini başının altına qoymuş halda yatırdı. Əl bərkiyib döşəməyə uzanmışdı və yalnız ovcu könülsüz titrəşirdi.

**2**

Hələ bir saat əvvəl Xalq Komissarlığının daxili işlər üzrə iki əməkdaşı Rubaşovun qapısını döyüb, onu həbs etmək istəyirdilər, yuxusunda görmüşdü ki, həbs olunur.

Taqqıltı səsi ucadan gələndə Rubaşov adət etdiyi yuxunu özündən qovaraq diksindi. O, gecə kabuslarından yayınmağı bacarırdı, çünki ilk həbsi haqdakı yuxusu onun üçün dəyişilməz vərdişə

çevrilmiş, saatın rəhmsiz əqrəbi kimi təkrarlanıb dururdu. Bəzən qəzəblə özünü məcbur edərək saatını dayandırırdı, amma indi heç bu da köməyə gələ bilməzdi: son həftələrdə çox yorulmuşdu, indisə bədənini tər basır, yuxu nəfəsini kəsirdi, saatlar isə çıqqıldamağında, yuxu uzanmağında idi.

Adətən yuxusuna girirdi ki, qapısını möhkəm döyürlər, pilləkəndə isə onu tutmağa hazırlaşan üç nəfər dayanıb. Bağlı qapıdan onları aydın görür, titrəşən divarlardan səslərini eşidirdi. Onların əynində tikanlı yeni forma – Üçüncü imperiyanın pretoriyançıların mundirlərindən, papaqlarının qabağı və qollarında isə gənc Diktaturanın emblemi – vəhşi hörümçəyəbənzər xaç olurdu; əllərində yekə tapança tuturdular, ayaqqabıları, bel və çiyin kəmərlərindən isə təzə dəri iyi gəlirdi. Və budur, onlar artıq burada idilər, onun otağında: balıq gözlü iki yekəpər kənd oğlanı və balacaboy cılız adam. Çarpayının baş tərəfində dayanmışdılar, o, sakit mənzildə dəqiq eşidilən arıq adamın astmalı, digərlərinin isə çaşqın nəfəsini duyurdu. Qəfildən yuxarı mərtəbədəkilərdən kimsə suyu çirkab borusuna tökəndə boğuq uğultulu səs gəldi.

Saatlar dayandı; taqqıltı daha möhkəmləşdi; Rubaşovun arxasınca gələn iki adam növbəylə qapını yumruqlayır, sonra donmuş əllərini isidirdilər. Rubaşov yuxuya güc gələ bilmədi, hərçənd, ən dəhşətli şeyin başladığını duyurdu: onlar artıq çarpayıya sıx dayanmış, o isə xalatını geyinməyə çalışırdı. Amma sanki qəsdən qoltuğunda astar çevrilmişdi, əli ilişib qalırdı. Rubaşovun sonuncu cəhdi də nəticəsiz oldu və qəfilən sanki iflic tutdu: tərpənə bilmədi, anladı ki, indi xalatın lənətəgəlmiş qolunu vaxtında tapması həyati əhəmiyyətli hərəkətdir. Zəhlətökən əlacsızlıq bitib-tükənmək bilmirdi, Rubaşov bağırır, çarpayıda qıvrılır, gicgahından soyuq tər axır, qapı döyülməsi isə beyninə baraban zərbəsi kimi vururdu; bir əli balışın altında ilişib, obiri də xalatın qolunda sancı verirdi və nəhayət, yekun zərbə onu dəhşətli kabusdan oyatdı.

Son illərdə yüz dəfələrlə yaşanmış ənənəvi təəssüratla (qulaqlarının yanında açılan tapança atəşi səsindən bir az da ağır eşidirdi) Rubaşov gözlərini açırdı. Hərçənd, titrəşməsi tez keçmədi, elə əli də hələ balışın altında çırpınır, digəri xalatın qolundan çıxmaq istəyirdi, çünki tamamilə oyanmamışdan əvvəl sonuncu sınağı keçməliydi: əmin olmalıydı ki, yuxuda deyil, əslində, kamerada – ayağının altında zir-zibil, su dolu aftafa, boyat çörək qırıntıları tökülmüş soyuq və rütubətli döşəmənin üzərindədir.

Heç indi də cansıxıcı qorxu Rubaşovu tez tərk etmədi, çünki əlinin aftafaya, yoxsa tumbanın üzərindəki lampaya toxunmasını heç cür təyin edə bilmirdi. Lampa yananda təlaşı səngidi. O, sanki qurtuluşun həzzini çıxarmaq üçün bir neçə dəfə dərindən nəfəs aldı, cib dəsmalıyla başının tərini siləndə seyrək tüklər islandı və Birincinin rəngli portreti kinayə ilə bərq vurdu – vaxtında ondan qəhrəmanlıq və çətin sınaqlar, indisə öz hökmdarının bağlı qanadlarına səcdə tələb etməklə o, Rubaşovun çarpayısında kök atmışdı, bütünlüklə Rubaşovların çarpayı, şkaf və komodlarının üzərində, şəhərinin bütün mənzil və otaqlarında, ucu-bucağı görünməyən vətəninin bütün şəhərlərində beləcə dayanırdı. İndi Rubaşov tamamilə oyaq idi, amma qapı döyülməsi yenə eşidilirdi.

**3**

Rubaşovun arxasınca gələn iki nəfər pilləkənin yarıqaranlıq meydançasında durmuşdular. Həyət gözətçisi Vasiliy mövcud vəziyyəti qəbullanaraq liftin açıq qapıları önündə dayanmış, qorxudan ağır-ağır nəfəs alırdı. O, arıq, cılız qoca adam idi; gecə köynəyinin üstündən geyindiyi, çiyinlərində şaxta izi olan cırıq şinelindəki geniş sarı çapıq ona qızılı görkəm verirdi. Rubaşovun məşhur briqadasında vuruşarkən Vətəndaş Müharibəsində yaralanmışdı. Sonra Rubaşovu ölkə xaricinə göndərdilər, Vasiliy bundan yalnız gecələr qızının ona oxuduğu qəzet vasitəsiylə xəbər tutdu. Partiya adından ezamiyyətə getmiş Rubaşovun açıqlamaları uzun və anlaşılmaz idi, ən əsası, Vasiliy bu açıqlamalarda, hətta, Kazanın Tanrı Anasının səmadan ona baxıb gülümsədiyi, hər kəsin qayğısına qalmaq bacarığında olan öz saqqallı briqada komandirinin səsini eşitməmişdi. Adətən, Vasiliy açıqlamanın ortasında mürgüləməyə başlayır və yalnız qızının son cümlələri oxuyub alqış hay-küyü yaradanda oyanırdı. "Yaşasın Partiya! Yaşasın İnqilab! Yaşasın rəhbərimiz və Birinci müəllimimiz!" kimi yekunlaşdırıcı ibarələrə Vasiliy ürəkdən "Amin!" deyirdi, amma qızının eşitməyəcəyi tərzdə;

sonra köhnə pencəyini çıxarar, xaç çəkər və çarpayıya uzanardı. Vasiliyin divarından Birinci baxırdı, onun yanında isə briqada komandiri Nikolay Rubaşovun saralmış köhnə fotoşəkli asılmışdı. Bu şəkli görsəydilər, yəqin, onu da tutacaqdılar.

Rubaşovun mənzili qarşısındakı pilləkən meydançasında sakitçilik, qaranlıq və soyuq idi. Xalq Komissarlığının işçilərindən biri (cavan olanı) qapının cəftəsinə bir neçə dəfə atəş açmağı təklif etdi. Yalın ayağa uzunboğaz çəkmə geyinmiş Vasiliy liftin qapısına halsız söykənmişdi; onu oyadanda elə qorxmuşdu ki, ayağına isti parça dolamağı da unutmuşdu. Böyük işçi atəş açmağın əleyhinəydi, həbsi səssiz-səmirsiz həyata keçirmək lazım idi. Onlar donmuş əllərini nəfəsləriylə isidir, yenidən qapını döyməyə davam edirdilər, cavan olanı tapançanın tiyəsi ilə döyürdü. Aşağıdan haradansa bir qadın qışqırdı.

– Kəs onun səsini! – cavan işçi Vasiliyə dedi.

– Ey, ordakı, – Vasiliy bağırdı, – Orqandan gəliblər.

Qışqırıq kəsildi. Cavan qapıya təpiklə vurmağa başladı. Zərbələr bütün dəhlizi titrədirdi. Nəhayət, sınıq qapı açıldı.

Üç adam çarpayının ətrafında toplandılar; cavan olanı əlində tapança tutmuş, nisbətən yaşlı olanı sanki “Fərəqət!”dəki kimi dik dayanmış, bir az arxadakı Vasiliy isə divara söykənmişdi. Rubaşov alnının tərini silib gələnlərə çəp-çəp baxdı.

– Vətəndaş Nikolay Zalmanoviç Rubaşov, – cavan işçi ucadan dedi, – İnqilab adından həbs olunursunuz!

Rubaşov balışın altından pensnesini götürüb çarpayıda dik oturdu. Yalnız eynəyini taxanda o, Vasiliy və böyük işçinin qəzet və portretlərdə gördüyü Rubaşova bənzədi. Böyük işçi ehmalca yaxınlaşmaq istəyəndə, cavan işçi yeni qəhrəmanlara xas olan çevikliklə iri addım ataraq çarpayıya yaxınlaşdı – həm Vasiliy, həm Rubaşov, həm də böyük işçi gördülər ki, o, ya danışığı, ya da hərəkətiylə bağışlanmaz kobudluq etmək istəyir: yaranmış bu vəziyyət onu qane etmirdi.

– Bir dəqiqə, silahınızı yığışdırın, yoldaş, – Rubaşov bildirdi, – və izah eləyin, nə məsələdir?

– Nədi, eşitmədiniz? Siz həbs olunursunuz, – cavan dedi, – Tez olun, paltarınızı geyinin!

– Orderiniz var? – Rubaşov soruşdu.

Böyük işçi cibindən kağız çıxarıb ona verdi və yenə yerində donub qaldı.

Rubaşov diqqətlə sənədi oxudu.

– Nə deyirəm ki… Yaxşı, – o deyindi, – Özgə xətalarından dərs ala bilməzsən. Onun anasını…

– Cəld olun, geyinin, – deyə cavan işçi dedi.

Onun kobudluğu heç də süni deyildi, elə xasiyyəti beləydi. “Hə, şərəfli davamçılar yetişdirmişik” deyə Rubaşov düşündü. O, gənclərin daim gülümsədiyi afişaları xatırladı.

– Ordan xalatımı verin, – dedi, – və bəsdir burda tapançalarınızla xoruzluq etdiniz.

Cavan qızardı, amma heç nə demədi. Böyük işçi xalatı Rubaşova verdi, o da elə ilk cəhddən xalatın qolunu geyinə bildi.

– Alındı, – gərgin təbəssümlə dedi.

Qalanları heç nə anlamayıb qaşqabaqla susdular. Rubaşov asta-asta çarpayıdan qalxıb yerə səpələnmiş paltarlarını yığışdırdı. Evdə bu hay-küydən sonra yenə ölü sükut hökm sürməyə başladı, onların dördündə də qəribə təəssürat vardı ki, sakinlər yatmayıb, sadəcə yerlərinə girərək necəsə nəfəs almamağa çalışırlar. Sonra yuxarı mərtəbələrdən kimsə suyu çirkab borusuna tökəndə boğuq uğultulu səs gəldi.

**4**

Binanın qarşısında yeni amerikan modellərindən bir maşın dayanmışdı. Küçə tamamilə zülmət idi, ətraf binaların sakinləri yatır, ya da özlərini yatmış kimi göstərirdilər. Sürücü parlaq işıqlarını yandırdı və onlar bir-bir maşına oturdular: öncə cavan işçi, sonra Rubaşov, arxasınca da böyük işçi. Özü də Komissarlıqdan olan sürücü maşını işə saldı. Şəhərin mərkəziylə getmələrinə baxmayaraq, döngədən o yana asfalt örtüyü bitirdi, ətrafda səkkiz, doqquz və ya on mərtəbəli müasir binalar ucalırdı; buz və tapdanmış qarla örtülü olan çınqıl daşların düzüldüyü yol dərin və qeyri-bərabər təkər

izləriylə dolu idi. Sürücü çox asta sürürdü, hərçənd, yaxşı təchiz olunmuş maşın köhnə araba kimi cırıldayır, ulartı səsi çıxarırdı.

– Bir az tez sür də! – içəridəki sükutu pozan cavan işçi dilləndi.

Sürücü çevrilmədən çiyinlərini çəkdi. Hələ Rubaşov maşına minəndə sürücü ona soyuq düşmənçiliklə baxmışdı. Bir dəfə Rubaşovun halı pisləşmişdi, onda çağrılan "Təcili tibbi yardım" maşınının sürücüsü də eynilə bu cür baxırdı. Maşının bu adamsız, sanki, ölü küçədə darıxdırıcı, heç vaxt olmayan kimi asta gedişi, faraların titrək işıq saçması adama dəhşətli əsəb gətirirdi.

– Hələ çox gedəcəyik? – Rubaşov qarşıdakı çalalı yollara boylanaraq soruşdu. Az qala, "sizin xəstəxanaya" deyəcəkdi.

– Otuz dəqiqə, – böyük işçi dilləndi.

Rubaşov cibindən siqaret çıxarıb birini özü üçün götürdü, qutunu müşayiətçilərinə uzatdı. Cavan dərhal başını buladı, böyük işçi isə iksisini götürüb, birini qabağa – sürücüyə ötürdü. O da bir əliylə sükanı saxlayıb, digəriylə kibrit çöpünü papağının dimdiyinə sürtüb yandırdı. Rubaşov daxilən bir az sakitləşdi, amma sonra nədənsə acı utancaqlıq hissi keçirdi. "Ah, necə də təsirlidir!" deyə düşündü. Əvvəl-axır öz iztirablarına qalib gəlməyəcəyini bilib, donmuş dörd insanın arasındakı rəsmiliyi əritmək üçün danışmağa başladı:

– Heyif bu maşından! – astaca dedi, – Biz xarici maşınları qızıl bahasına alırıq, amma gətirib bu yollarda cəmi bir neçə ay sürə bilirik.

– Həə, elədir. Yollarımız pisdir hələ ki, – böyük işçi bildirdi. Səsinin tonundan bilinirdi ki, Rubaşovun narahatçılığını duyub. Rubaşov özünü qabağına sümük atılan küçə iti kimi hiss etdi və dərhal danışığı kəsməyinə qərar verdi. Hərçənd, cavan cəsarətlə soruşdu:

– Guya kapitalistlərdə yollar yaxşıdır ki?

Rubaşov könülsüz gülümsədi.

– Bəs siz nəvaxtsa ölkə xaricində olmusunuz?

– Mən belə də onların nə etdiyini bilirəm. Mənə ki burjuaziya propaqandası təsir eləmir.

– Maraqlıdır, siz məni necə tanıyırsınız? – tamamilə sakit şəkildə Rubaşov ondan soruşdu və dərhal da özünü saxlaya bilməyib əlavə etdi, – Partiyanın tarixini oxumağınıza ehtiyac var.

Cavan işçi cavab verməyib sürücünün kürəyinə zillənib qaldı. Daha heç kim heç nə demədi. Mühərrik yenə, üçüncü dəfə söndü və sürücü lənət oxuyaraq onu yenidən işə saldı. Maşın şəhərətrafı küçələrlə tullana-tullana gedirdi – yollar heç dəyişmək bilmirdi. Ətrafda sıxıcı kənd evləri gözə dəyirdi, onların donqar damlarının üzərindən soyuq və solğun Ay asılıb qalmışdı.

**5**

Yeni tikilmiş həbsxananın dəhlizində güclü lampalar yanırdı. Cansız, gözqamaşdırıcı işıq lüt, ağ divarları, soyadlar çap olunmuş karton lövhəciklərin asıldığı kamera qapılarını, içəri baxmaq üçün qara gözlükləri və ikinci mərtəbənin dəmir qalereyasını yalayırdı. Bu güclü rəngsiz parıltı və daş lövhələrdən ibarət döşəmədəki əks-sədasız, qırıq-qırıq addım səsləri Rubaşova o qədər tanış gəldi ki, gecə kabuslarının illüziyası bir neçə saniyə onu tərk etmədi. O, cidd-cəhdlə özünü bütün bunların gerçək olmadığına inandırmağa çalışırdı. "Əgər yatmış olduğuma inansam, – deyə düşünürdü, – bunlar həqiqətən də yuxu olacaq". Özünü inanmağa elə məcbur etdi ki, bir saniyəlik başı fırlandı – bu hərəkəti ona dözülməz utancaqlıq gətirdi. "Xilaskar adlandırılıb, xaçını çək, – düşündü, – axıra kimi". Tezliklə gözətçi 404 nömrəli kameranın qapısının önündə dayandı. Gözlüyün üstündən ağ lövhəcik asılmışdı: "Nikolay Zalmanoviç Rubaşov". "Dəqiq işləyirlər" – fikirləşdi, əvvəlcədən qapının üstündəki lövhəciyə kimi hazırlanmış görüntü onu, demək olar, heyrətləndirdi. Gözətçidən özü üçün daha bir adyal gətirməsini xahiş etmək istəyirdi ki, qapı cingiltiylə cırıldayıb örtüldü.

**6**

Nəzarətçi tez-tez gözlükdən içəri baxırdı. Rubaşov tərpənmədən çarpayıda uzanmışdı, yalnız döşəməyə sallanan əli azacıq tərpənirdi. Yatacağın ayaqaltısında siqaret və pensne[1] vardı.

Saat yeddidə – Rubaşovu gətirib kameraya salandan iki saat keçmiş – o, aramsız zəng səsinə oyandı. Adi yuxular ona əzab vermirdi, bu səbəbdən yaxşı istirahət edərək ayıldı. Oyanma siqnalı üçüncü dəfə təkrarlandı. Zəng səsi kəsiləndə, kameraya yenidən ölü sükut çökdü.

Qış günü hələ indi başlayırdı, işıqlanan hava unitaz və kranlı rakfinanın üzərindəki ərpi açıq-aydın göstərirdi. Qara barmaqlıq pəncərənin çərçivəsinə bərkidilmişdi, sol tərəfin yuxarısındakı sınmış şüşəni kimsə qəzet parçasıyla əvəzləmişdi. Rubaşov yerdən pensne və siqaretini götürüb, yenə çarpayıya qalxdı. Eynəyini taxandan sonra kibrit çöpünü yandırdı. Kamera əvvəlki kimi sükuta qərq olmuşdu. Əhənglə rənglənmiş bu nəhəng daş pətəyin hər küncündə oyanan insanlar eyni anda qalxır və lənət oxuyaraq yeni səhərə qədəm qoyurdular. Birnəfərlik kameraların sakinləri isə dəhlizdə gəzən nəzarətçinin addımlarından başqa heç nə eşitmirdilər. Rubaşov bilirdi ki, bu birnəfərlik kamera düz güllələnməyə qədər onun evi olacaq. Üzüyuxarı uzanıb siqaretini sümürür və seyrək saqqalını sığallayırdı.

"Deməli, güllələnmə" – deyə düşündü. Gözlərini qırparaq maili dayanmış ayaq barmaqlarına baxırdı. Yeri isti, rahat və sakit idi, çox yorulmuşdu və həbsxana adyalının altındaca yuxuya gedib ölümü azdırmaq üçün mürgüləmək istəyirdi. "Deməli, səni güllələmək istəyirlər" – Rubaşov fikrində öz-özünə dedi. O, ayaq barmaqlarını astaca tərpətdi və yadına İsa Məsihin ayaqlarının taladakı ağ cüyürə bənzədildiyi şeir parçası düşdü. Pensnesini çıxarıb əliylə sildi, bu jest onun bütün tələbə və tərəfdaşlarına tanış idi. O, demək olar ki, özünü tamamilə xoşbəxt hiss etdi, amma yüngül qorxusu nəvaxtsa yenidən ayağa durmasıyla bağlıydı. "Deməli, səni məhv etməyə hazırlaşırlar" deyinib siqaretini sovurdu, hərçənd, cəmi dörd ədəd siqareti qalmışdı. Ac mədəsinin ilk xəbərdarlığı onu həmişə azacıq sərxoş edirdi, indi isə artıq gərginləşməyə başlamışdı, aclıq hissi həmişə ölümün gözlərinə baxmaq istəyəndə üsyankarlıqla onu narahat edirdi. Partiya onu qüsurlu, hətta tamamilə faydasız hesab etmişdi, amma Partiya haqda düşünmək istəmirdi. Deşilmiş corabından çıxan barmağına baxdı və onları tərpətdi. Sonra gülümsədi. Bədəninə heç vaxt xatırlamadığı isti minnətdarlıq hissi duyanda Rubaşov xoşhallandı, amma qaçılmaz ölüm onu özünəvurğun qüssəyə qərq edirdi. "Köhnə qvardiyaçıda qorxu olmamalıdır" – astadan, amma bir az da pafosla oxudu, – "Zülmət onların üzərində zireh yaradıb… Biz axıra qalmışıq, tezliklə biz də… külə dönəcəyik". İstədi yekun hissəni də oxusun, amma melodiyanı unutmuşdu. "Tezliklə biz də…" – təkrarlayaraq "Köhnə qvardiya"nın haqqında danışdığı insanların sifətini xatırlamağa çalışdı. Yadında az adam qalmışdı. "İnternasional"ın vətənə xəyanət ittihamıyla edam olunan birinci katibinin sinəsi damalı jiletinə dar qalırdı – Rubaşov onun üzünü xatırlaya bilmədi. O, şalvarını çiynindən kəmərlə sıxırdı. Həmçinin, edam olunan Xalq Komissarları Sovetinin katibi təhlükə məqamında dırnaqlarını gəmirirdi. "Tarix sizə bəraət qazandırır" – Rubaşov dedi, hərçənd, buna əmin deyildi. Həqiqətən də, təhlükə anında gəmirilən dırnağın Tarixə nə dəxli var? O, siqaretini tüstülədib ölənlər və onların ölümdən qabaq necə zülmlər yaşadıqları haqda düşündü. Bütün bunlara baxmayaraq, Birinci onda heç bir nifrət doğurmurdu, hərçənd, şübhəsiz doğurmalıydı. Tez-tez çarpayısının üstündən asılan litoqrafik portretə baxırdı ki, nifrət hissinə nail ola bilsin. (Ona müxtəlif ləqəblər qoyulsa da, nəticədə Birinci öz təsdiqini tapmışdı). Birincinin onlara ötürdüyü dəhşət hər şeydən qabaq ona görə möhkəmlənirdi ki, o, çox inandırıcı şəkildə haqlı olurdu və ölümə məhkum etdiyi adamlar, hətta, tapanca gicgahlarına dirənəndə də onun haqsız olduğunu düşünmürdülər. Hərçənd, heç kim buna əmin deyil, Tarix adlandırdıqları qarı Pifiyanın ikibaşlı danışığı kimi müttəhimlər yanıb külə dönəndən sonra aydınlaşacaq.

Rubaşov birdən kiminsə baxışını hiss etdi və anladı ki, gözlüyə baxsa, canlı insan gözü görə biləcək. Tezliklə metal cingiltisi eşidildi, qapının kilidinə açar salırdılar. Bir neçə saniyə keçməmiş qapı açıldı. Növbətçi – uzunboğaz çəkmədəki qoca içəri girmədən soruşdu:

– Siz niyə durmamısınız?

– Xəstələnmişəm, – Rubaşov dedi.

– Sabaha kimi sizə həkimə müraciət etməyə icazə yoxdur. Bəs nə olub ki?

– Diş.

– Diş? – təəccüblənmiş nəzarətçi dəhlizə çıxıb qapını örtdü.

“Həə, indi sakitcə uzanmaq olar” – Rubaşov düşündü, amma rahatçılığı getmişdi. Həbsxananın rütubət qoxan isti adyalı qəfildən ona ürəkbulandırıcı gəldi. Barmaqlarını tərpədib adyalı yana itələdi, yenə öz ayaqlarına baxdı – bundan halı daha da pisləşdi. Corabının deşiyindən beşlik görünürdü. İstədi ayağa qalxıb corabını tiksin, qapını döyüb nəzarətçidən iynə-sap almalı olduğunu düşünəndə, bu təmirdən hələlik vaz keçdi: həm də çətin ki, ona iynə verəydilər. Birdən qəzetlər üçün darıxdı. Yeni xəbərlər oxumağı, kağız xışıltısını eşitməyi, tipoqrafiya boyasının iyini ciyərinə çəkməyi arzuladı. Ola bilsin, hardasa inqilab baş verib, yəqin, hansısa prezident öldürülüb, bəlkə də, amerikalılar yerin cazibə qüvvəsinə qalib gəlməyi başarıblar… Yox, özü haqda heç nə bilmir, hələ bir müddət onun həbsi ölkə daxilində sirr kimi saxlanılacaq; xəbər xaricə tez sızacaq, onlarsa arxivdən on il qabaqkı şəklini götürüb, Birincinin niyə bunu etdiyinə dair xeyli axmaq mülahizələr yazacaqlar. O, artıq qəzet oxumaq istəyirdi, indi Birincinin nə haqda düşündüyünü, beynində nə baş verdiyini bilmək üçün alışıb-yanırdı. O, dəqiq xatırlayırdı – hətta, görürdü – ki, Birinci öz stenoqraf katibəsinə necə diktə edir: gödək bədən tərpənmədən donub qalıb, əllərini masaya dirəyib və dodaqları tələsmədən sözlərə forma verir. Adi adamlar danışanda otaqlarında gəzişər və ya düşüncəli halda xətkeşlə oynayar, ya da siqaretindən sümürüb havaya tüstü dairəsi buraxar. Birinci isə nə tüstü üfürür, nə xətkeşlə oynayır, nə də otağında gəzişirdi… Elə burdaca Rubaşov fərqinə vardı ki, artıq beş dəqiqədir yatağından qalxıb kamerasında gəzişir. Köhnə vərdişi qayıtmışdı – heç vaxt döşəmənin daş örtüyü arasındakı xəttə ayaq basmırdı, artıq ara məsafələrinin əzbərləmişdi. Amma fikirləri xəbəri olmadan öz portretinə çevrilən Birincinin yanındaydı, o portretin ki, ölkənin bütün şəhər və kəndlərindəki çarpayıların baş üzərində asılaraq insanları süzürdü.

Rubaşov unitazla yatacağın arasında – altı yarım addım pəncərəyə tərəf, altı yarım addım qapıya tərəf – var-gəl edirdi. Köhnə həbsxana vərdişinə görə, pəncərədən sola, qapıdan isə sağa dönürdü və əgər döngənin istiqamətini dəyişməsəydin, dərhal başgicəllənməsi yaranardı. Görəsən, Birinci nə düşünürdü? Onun beynində nələr baş verirdi? Rubaşov rəhbər və müəllimin kəlləsinin içini xəyal etdi – qarşısında vatman kağızının ağ, hamar səthinə boz akvarellə çəkilmiş və iynəli düymələrlə çertyoj lövhəsinə sancılmış geniş xarabalıq yarandı. Boz əyriliklər ilan kimi bir-birinə qıvrılır, sonsuz bağırsaq kimi enlənir, parlayıb solğunlaşır və fırlanaraq astronomik xəritələrin dumanlığına bənzər spirallar yaradırdılar. Bu dumanlıqda nə baş verirdi? İnsanlar Kainatı ətraflı tədqiq edir, amma öz şüurları haqda az şey bilirlər. Yəqin, buna görə yer tarixçilərinin hələ də öncəgörmədə tayı-bərabəri yoxdur. Ola bilsin, sonra, çox sonra tarix statistika cədvəlləri və anatomik sxemlərlə elmə çevriləcək. Onda hansısa xalqın hansısa dövrdəki həyat şərtlərini təsvir edən çox ciddi və qısa riyazi tənliyi lövhəyə yazan müəllim əminliklə şagirdlərinə belə deyər: “Beləliklə, biz hazırkı tarixi prosesi şərtləndirən obyektiv amilləri görürük”. Sonra Rubaşovun təsəvvür etdiyi çertyoju göstərib əlavə edər: “Bu isə XX əsrin birinci yarısında Şərqi Avropada hökm edən totalitar rejimdə onların subyektiv təzahürüdür”. Tarix elmə çevrilməyincə, siyasət qana həris, axmaq sehrbaz və yalançı cindar olacaq…

Sükutu bərabər addımlar pozdu. Rubaşovun ağlına yalnız bir fikir gəldi: işgəncə. Dərhal dayanıb diqqət kəsildi. Qonşu kameraların birinin önündə addımlar dayandı, açarlar çevrildi və hansısa əsəbi əmrin səsi eşidildi. Sonra yenə sükut çökdü.

Rubaşov tərpənmədən nəfəsini saxlayaraq özünü birinci fəryada hazırladı. O, əzabdan daha çox qorxu gətirən, adətən ən dəhşətli görünən ilk ah-naləni yaxşı xatırlayırdı. Cəfakeş ağrıdan bağıranda, buna xeyli tez öyrəşirsən, sonra hətta işgəncə metodunun necə dəyişdiyini də – səsin tonu, yüksəkliyi və fəryadın tempindən tapmağa nail olursan. İşgəncənin sonunda insanların bir-birindən necə fərqlənməsindən asılı olmayaraq, özlərini təxminən eyni cür aparırlar: ah-nalə zəifləyib yavaşıyır və xırıltılı zarımaqla əvəzlənir. Bundan bir az sonra qapı cırıldayır, açarların cingiltisi eşidilir və növbəti qurbanın səsi hələ onun qapısı cırıldamamışdan eşidilir.

Rubaşov kameranın ortasında dayanıb ilk fəryadı gözləyirdi. O, əliylə yavaşca pensnesini silib özünə söz verdi ki, bu dəfə də yalnız doğru bildiyi şeyləri deyəcək. Gözləyirdi, amma sükutu hələ

heç nə pozmaq istəmirdi. Sonra açarların cingiltisi, hansısa sözlər və qapı döyülməsi eşidildi. Addım səsləri yaxınlaşır, getdikcə yüksəlirdi.

O, qapının yanına atılıb gözlükdən dəhlizə baxdı. Əks tərəfdə, 407-ci kamera qarşısında iki silahlı mühafizəçi dayanmışdı, biri hündürboylu idi, açıq-aydın məhbuslardan olduğu bilinən üç balander (həbsxanalarda yeməkpaylayan) vardı – ikisi çayqabı, biri çörək səbəti götürmüşdü. Qoca nəzarətçi isə əzilmiş uzunboğaz çəkmələrdə idi. İşgəncə bitmişdi, səhər yeməklərini paylayırdılar.

407-ci çörək aldı. Rubaşov onun üzünü görə bilmədi. Yəqin o, təlimatda yazılan kimi, qapıdan bir addım arxada dayanaraq sakitcə əlini uzatmışdı – onlar isə, iki qurumuş ağac kimi alaqaranlıq kameranın kandarında dayanmışdılar. Əllər ovucdan qatlanmışdı. Payını alan məhbus onu qamarladı, əlləri görünməz oldu. Qapısı örtüldü.

Rubaşov baxışlarını gözlükdən çəkdi. Qeyri-ixtiyari pensnesini əliylə silib yenə taxdı, dərindən nəfəs aldı, ilk səhər yeməyini gözləyərkən, hansısa melodiyanı mızıldayaraq kamerada gəzişməyə başladı. 407-cinin solğun ovcu Rubaşova darıxdırıcı narahatlıq gətirirdi. Bu uzanan əllərin cizgiləri və hətta, göyümtül ləkələr sanki unudulmuş mahiyyət və yaxın limanın qoxusuyla dolmuş dar döngələrin ətri kimi ona tanış idi.

**7**

Kamera qapıları açılıb bağlanırdılar, amma onun yanına hələ heç kim girməmişdi. O, isti çay haqda düşünərək vurnuxub gözlükdən baxdı. 407-cini yemləyəndə Rubaşov qapaqsız çaydandan qalxan parı və yarışəffaf limon dilimlərini görmüşdü. Pensnesini çıxarıb gözlərini gözlüyə dirədi. Ona dörd kamera görünürdü – 401-dən 407-dək. Qapıların üstündən metal perila gedirdi, ondan sonra isə ikinci mərtəbənin kameraları başlayırdı. Sağda yenə balanderlər göründü – belə çıxırdı ki, onlar əvvəlcə təkrəqəmli kameralara, sonra da cütrəqəmlilərə səhər yeməyi paylayırlar. Növbə 408-ci kameraya çatanda Rubaşov yalnız kəmərindən tapança qabı asılmış mühafizəçilərnin çiyinlərini gördü, balander və nəzarətçilər bir az aralı dayanmışdılar. Qapı örtüldü, indi də 406-cıya yaxınlaşırdılar. Rubaşov yenidən çay qabları və çörək səbətləri olan balanderləri gördü. Onlar 406-cının yanından ötdülər, deməli, həmin kamera boş idi. Dayanmadan Rubaşovun yanından da keçdilər, irəliləyib 402-ciyə tərəf getdilər.

Rubaşov yumruğuyla qapını döydü. Çay daşıyan balanderlər çevrildilər, qərarsız halda bir-birinə baxdılar. Nəzarətçi heç nə eşitmirmiş kimi əlindəki açarları cingildətdi. Mühafizəçilər kürəyini Rubaşova çevirdilər. 402-ci də çörək alandan sonra onlar hamısı getməyə hazırlaşdılar. Rubaşov var gücü ilə qapını döydü, ardınca ayaqqabısını çıxarıb dabanıyla qapıya vurmağa başladı.

Hündürboy mühafizəçi tələsmədən çevrildi və heç bir üz ifadəsi olmadan arxaya baxdı. Nəzarətçi kameranın qapısını möhkəm vurdu. Çay daşıyan balanderlər bir saniyəlik ləngidilər. Mühafizəçi nəzarətçiyə əmr etdi, o da çiyinlərini çəkib Rubaşovun kamerasına doğru yönəldi. Çay daşıyan balanderlər də onun arxasınca düşdü, amma üçüncüsü gözlüyün yanına tullanıb 402-ci otaqdakına nəsə dedi.

Rubaşov qapıdan bir addım kənara çəkildi, amma birdən nəyə görəsə səhər yeməyini ürəyi istəmədi. Fincandakı çay daha buxarlanmırdı, solğun-sarımtıl lehmədəki limon dilimləri isə nəhayətdə ona zəhrimar və selik kimi göründü.

Qapının kilidində açar fırlandı, gözlükdə insan gözü görünüb dərhal da yoxa çıxdı. Qapı açıldı. Rubaşov bu müddət ərzində yatacağa oturub çıxardığı ayaqqabısını geyinirdi. Nəzarətçi qapını geniş açdı, hündürboy mühafizəçi kameraya girdi. Onun yumru daz başı və heç nə ifadə etməyən baxışı vardı. Uzunboğaz çəkməsi və geyiminin dəri kəməri sıx idi, Rubaşova elə gəldi ki, təzə dərinin boğucu qoxusunu duydu. Mühafizəçi unitazın yanında dayanıb tələsmədən darısqal kameraya göz gəzdirdi.

– Kamera yığışdırılmayıb, – mühafizəçi bildirdi, – yəqin ki, qaydalardan xəbəriniz var.

– Hansı əsasa görə səhər yeməyindən məhrum olunmuşam? – Rubaşov pensnedən mühafizəçiyə baxdı və yaxasından bildi ki, o təhqiqatçıdır.

– Əgər xahişlə müraciət etmək istəyirsinizsə, ayağa durun, – təhqiqatçı astadan dilləndi.

– Nə sizinlə danışmağa, nə də xahişlə müraciət etməyə kiçik istəyim belə yoxdur, – ayaqqabısının bağını çəkərək Rubaşov cavab verdi.

– Onda bir də qapını döyməyin, yoxsa barənizdə belə hallar üçün nəzərdə tutulan adi tədbirlər görüləcək, – təhqiqatçı yenə kameraya boylandı, – Məhbusun təmizlik üçün əskisi yoxdur, – nəzarətçiyə müraciətlə dilləndi.

Nəzarətçi səbətli balanderi çağırıb astadan nəsə əmr etdi, o da dəhliz boyu dabrıyaraq getdi. Çay daşıyan balanderlər yaxına gəlib, marağını gizlətmədən Rubaşova baxmağa başladılar. Təhqiqatçı kimi görünən ikinci mühafizəçi isə Rubaşovun kamerasına tərəf heç dönüb baxmadı.

– Yeri gəlmişkən, məhbusun səhər yeməyi də yoxdur, – Rubaşov ayaqqabısının bağını düyünləyib dedi, – Onun aclıq elan etməyə ehtiyacı yoxdur. Çox humanist metodlarınız varmış.

– Səhv edirsiniz, – təhqiqatçı heç nə ifadə etməyən səslə bildirdi. Onun yumru daz başında geniş çapıq görünürdü, sinəsində isə İnqilab Ordeni lenti vardı. “Belə çıxır, sən də Vətəndaş Müharibəsində iştirak etmisən” – Rubaşov könülsüz rəğbətlə düşündü. Amma bütün bunlar çoxdan baş vermiş və indi heç bir əhəmiyyət kəsb etmirdi.

– Səhv edirsiniz. Xəstələnmiş məhbuslara yemək yalnız həkim nəzarətindən sonra verilir.

– Onun dişidir, – deyə nəzarətçi dəqiqləşdirdi. O, yağ ləkəli formada, əzik çəkməsi üzərində qapıya söykənərək dayanmışdı.

– Aydındır, – dişlərini qıcayan Rubaşov dedi. Dilində fırlanan “İnqilabın tibb şöbəsi xəstələri məcbur aclıqda saxlamaqla yeni müalicə metodunu nəvaxtdan kəşf edib?” sualını səsləndirməkdən özünü güclə saxladı. Bu söhbətdən ürəyi bulanırdı.

Bayaq gedən balander qaçaraq təngnəfəs kameraya girdi və çirkdən qaxac olmuş əskini nəzarətçiyə verdi. O da əskini rakfinanın içinə tulladı.

– Yenə hansısa xahişiniz varmı? – təhqiqatçı kinayəsiz şəkildə soruşdu.

– Var, – Rubaşov yorğun halda cavab verdi, – Məni tək buraxın.

Təhqiqatçı çıxışa tərəf irəlilədi. Nəzarətçi əlindəki açarları cingildətdi. Rubaşov çevrilib pəncərəyə tərəf gəldi. Qapı cırıldayıb örtüləndə yadına düşdü ki, ən vacib şey haqda unudub və qapının üstünə şığıyıb yumruğuyla döydü.

– Kağız və karandaş, – deyə ona baxan gözlüyə dodaqlarını dirəyib bağırdı. Sonra tələsmədən pensnesini qaldırıb onların dayanıb-dayanmamasına baxdı. Var gücüylə bağırmasına baxmayaraq, görünür, onu heç kim eşitməmişdi. Gözlükdən sonuncu görə bildiyi şey kəmərindən tapança qabı asılan hündürboy təhqiqatçının kürəyi idi.

**8**

Rubaşov kamera boyu bərabər addımlarla gəzişirdi – altı addım yarım pəncərəyə kimi, altı addım yarım geriyə. Təhqiqatçı ilə etdiyi söhbətə əsəbləşirdi, indisə pensneni əliylə silərək danışıqdakı hər bir sözü incələyirdi. Təhqiqatçı onda nifrət qığılcımı oyatmışdı və o, bu hissi yaddaşında saxlamaq istəyirdi: mübarizə aparmaq üçün kömək ola bilərdi. Hərçənd, köhnələrək çökmüş vərdiş əks-mövqeyə keçib, özünə indicə otaqdan çıxan təhqiqatçının gözləriylə baxmağa vadar edirdi. Budur, o, indi burda oturub, bu sərt, özündənrazı və saqqallı insancıq corablarının üfunətini ciyərinə çəkərək həyəcanla ayaqqabısının iplərini dartır. Hə, nəvaxtsa ona qarşı rəğbət vardı, amma indi çox hörmətli Rubaşovun odlu çıxışlar etdiyi tribuna bu kameradan fərqlənir. “Əfsanəvi Rubaşov bu imiş, – o, çapıqlı təhqiqatçının adından düşünürdü, – Yemlənmədiyinə görə, məktəbli uşaq kimi zırıldayır. Kamera isə zir-zibil içindədir. Corabında deşiklər var. Tipik cılız və intelligent dəymədüşər. Asayiş qanunlarının prinsipial və ya muzdlu (fərqi yoxdur) düşməni. Yox, biz İnqilabı belələrinə görə etməmişdik. Düzdür, o, bu işdə bizə kömək etdi (ovaxtlar döyüşçü idi), amma indi bu özündənrazılıq xarabalığını, bu deyingəni məhv etmək lazımdır. Bəlkə də, əvvəllər özünü elə göstərirmiş, sonra isə sabun köpükləri kimi partlayıb. Məgər özünə hörmət edən adam bu cür pinti kamerada oturar?” Rubaşov döşəməni yumaq barədə düşündü. Bir neçə saniyə qərarsızlıqda oturdu, sonra pensnesinin əliylə silib pəncərəyə yaxınlaşdı.

Qışın bozumtul ölüşkün işığı fonarların qəddar sarımtıllığını yumşaldırdı, elə bil, gündüz qar yağacaqdı. Təxminən səhər saat səkkiz idi, deməli, Rubaşov kameraya cəmi-cümlətanı üç saat qabaq düşmüşdü. Həyəti həbsxana korpusları əhatələyirdi, barmaqlıqlı pəncərələr darıxdırıcı tərzdə qaralırdı. Yəqin ki, orada da məhbuslar eynilə onun kimi həyətə baxırdılar, amma onları görmək olmurdu. Həyətdəki qarın səthi gümüşü rəngə çalırdı, ayaq altında şən xırtıltılı səs çıxarardı. Divardan iyirmi metrlik məsafədə, qar altında qalmış dar dalanların hər iki tərəfində kiçik ağ təpələr ucalırdı. Çöl divarın mühafizə xəttindəki növbətçi irəli-geri addımlayırdı. O, bir dəfə arxaya çevrilib tüpürdü və maraqla qövs formasında düşən tüpürcəyinə baxdı.

– Bədbəxt xəstəlikdir, – deyə Rubaşov düşündü, – İnqilabçı dünyanı başqaları kimi qəbul edən adam ola bilməz.

Bəlkə də, olar. Və hətta buna məcburdu da.

Hə, amma özünü başqalarından ayırmadan da dünyanı dəyişə bilər.

Ya da bəlkə, bacara bilsə.

Başqalarını anlayan və bağışlayan insan qəti qərara gəlib fəaliyyətə keçə bilərmi?

Ya bunu heç kim bacarmaz?

“Deməli, güllələnmə! – Rubaşov düşündü, – Mənim aydınlanmam heç kimin vecinə deyil”.

O, alnını pəncərəyə dirədi. Aşağıdakı həyət sakit və bəyaz idi.

Buzlu şüşəyə yüngül toxunaraq bir neçə dəqiqə hərəkətsiz dayandı, sonra fərqinə vardı ki, haradansa astadan, arasıkəsilməyən taqqıltı gəlir.

Boylanıb diqqətlə qulaq asdı. Taqqıltı o qədər ehtiyatla edilirdi ki, bir anlıq onun sağdan, yoxsa soldan gəldiyini ayırd etmək olmurdu. Bunu müəyyən edən müddətdə taqqıltı kəsildi. Özü rakfina olan 406-cının divarını taqqıldadanda heç bir cavab gəlmədi. O, 402-ci ilə arasındakı divara yaxınlaşdı və yatacağın üzərinə əyilib astadan taqqıldatdı. Hər an gözlüyə nəzarət edə bilməsi üçün Rubaşov yatacaqda yerini rahatladı, ürək döyüntüləriylə qulaq asmağa başladı. O, həmişə ilk əlaqələrdə həyəcanlanırdı.

402-ci dəqiq onu çağırırdı, üç zərbə – qısa fasilə, yenə üç zərbə – qısa fasilə, arxasınca da qısa aralıqlarla üç zərbə. Siqnalın alındığını bildirmək üçün Rubaşov ehmalca ona cavab verdi, qonşusunun “kvadrat əlifbanı” bilib-bilmədiyini öyrənməyə səbrsizlənirdi: əgər bilməsəydi, öyrənməyi uzun çəkəcəkdi. İri divar səsi udurdu və qonşusunu eşitmək üçün qulağını divara dirəməli, eyni zamanda, gözlüyə də nəzarət etməli olurdu. 402-ci veterana bənzəyirdi, o, yüngül, amma möhkəm əşya ilə (bəlkə də karandaşla) hərfləri tələsmədən və dəqiq taqqıldadırdı. Rubaşov çoxdandır məşq etmirdi, indisə bərabər zərbələri sayaraq hərəsində altı hərf yerləşən altı şaquli xanaya uyğunlaşdırılmış bütün əlifbanı təsəvvür etməyə çalışırdı. 402-ci iki dəfə taqqıldatdı: ikinci xana – E-dən K-ya kimi olur, qısa fasilədən sonra isə altı dəfə – bu xananın altıncı hərfi K-dır. Nisbətən uzun fasilələrlə olan dörd zərbə isə S-dən Ç-yə qədər olan xananı bildirirdi. Qısa fasilə və iki zərbə – həmin xananın ikinci hərfi İ idi. Uzun fasilə, arxasınca üç zərbə isə – üçüncü xana, L-dən R-ə qədər olan hərfləri işarə edirdi. Qısa fasilə və dörd zərbə – yəni dördüncü hərf M-dur. 402-ci susdu.

– Kim?

“Təcrübəli adamdır, – Rubaşov düşündü, – Kimlə iş gürdüyünü bilir”.

Düzdür, inqilab etikası qanunlarına görə, danışıq həmsöhbətin siyasi platformasını təsvir edən proqramlaşdırılmış lozunqla başlayırdı, arxasınca sonuncu xəbərlər, sonra yemək və siqaret haqda məlumatlar çatdırılırdı, yalnız bundan bir neçə gün sonra məhbuslar tanış olurdular. Yeri gəlmişkən, bütün bunlar o ölkədə baş verirdi ki, qaydalara görə, qanunsuz fəaliyyət göstərən və hakimiyyətdə olmayan partiyaların üzvləri məxfiliyin qorunması üçün bir-birini ləqəblərindən tanıyırdılar. Burda isə şərait bir az başqa cür idi və Rubaşov necə davranacağını bilmirdi. 402-cinin səbri tükəndi.

– Kim? – yenə taqqıldatdı.

– Nəyə görə gizlədim ki? – deyə Rubaşov düşündü.

O, astadan öz adını tam şəkildə taqqıldatdı:

– Nikolay Zalmanoviç Rubaşov.

Və maraqla nəticəsini gözləməyə başladı.

Fasilə kifayət qədər uzun çəkdi. Rubaşov gülümsədi, qonşusunun necə təəccübləndiyini təssəvvür etdi. Bir dəqiqəlik sükut iki, üç dəqiqəni ötdü, Rubaşov çiynini çəkib ayağa durdu. Yenə kamera boyu addımlamağa başladı, amma hər dönəndə durub qulaq asırdı. Divar susmaqda qərarlıydı. Pensnesinin əliylə siləndən sonra gəzməkdən yorulub gözlüyə yaxınlaşdı, dəhlizə baxdı.

Kimsəsizlik və sükut. Ölü elektrik parıltısı. Səssizlik. Görəsən, 402-ci niyə susdu?

Nəyə görə? Hə, yəqin ki, qorxusundan, axı Rubaşov onu ələ verə bilər. Partiyasız sakit mühəndis və ya həkim, istənilən siyasətdən kənarlaşdırılmış şəxs. Onun siyasi təcrübəsi yoxdur, yoxsa sabotajla xırda fəndlər etmək əvəzinə, soyad soruşmazdı. Yeri gəlmişkən, ola bilsin, kiçik fəndləri çoxdan edib və hələ də özünü sabotaja aidiyyatı olmayan adam kimi göstərir. Hələ də məsumcasına dünyanın taleyi həll olunarkən şəxsiyyətin günahkar və ya günahsız olmasının ciddiyə alınacağına inanır. Bütün ehtimallara görə, o, öz yatağında oturaraq prokurora heç kimin heç vaxt oxumayacağı sayca yüzüncü ərizəni, ya da arvadı üçün heç vaxt ünvanına yetişməyəcək yüzüncü məktubunu yazır. O, çoxdandır təraş olmur, saqqalı çoxalıb, üzü qaralıb və pintiləşib, çirkli dırnaqlarını mayasına kimi yeyib, yarıaxmaq erotik düşüncələr isə onun beynini gecə-gündüz didib-dağıdır. Həbsxanada insanın öz günahsızlığına inanması, onu daha da geri salır, şəraitə uyğunlaşmağa imkan vermir, əxlaqi dayanıqlığa zərbə vurur… Gözlənilmədən yenə səs gəldi.

Rubaşov yatacağa oturub diqqətini divara cəmlədi, amma, deyəsən, ilk iki hərfi keçirmişdi. 402-ci əvvəlki kimi deyil, daha tələsik və dağınıq taqqıldadırdı, yəqin, gəldiyi şövq ona mane olurdu.

– …xdan olmalıydı.

“Çoxdan olmalıydı?” Rubaşov bunu gözləmirdi. 402-ci inanclı adam imiş. Onun da müxalifləri görməyə gözü yoxdu və bu yazılanlara inanırdı ki, tarix qatarı Birincinin dahiyanə göstərişiylə dayanmadan doğru istiqamətə hərəkət edir. İnanırdı ki, öz həbsi də, İspaniyadan tutmuş Çinədək bütün qaçhaqovlar da, köhnə qvardiyanın heyvancasına məhv edilməsi də, milyonlarla insanın qırılması da yerlərdə Rubaşov və onun tərəfdarlarının süni iblisanə təxribatının nəticəsidir. Pinti, qara saqqal yoxa çıxdı, 402-cinin şahpərəst siması qırxılıydı, kamerası isə qaydalara uyğun olaraq yığışdırılmışdı. Onu nəyəsə inandırmaq mənasız iş idi, o, dəmiralınlılar sinfinə məxsusdu. Amma Rubaşov dünya ilə yeganə (bəlkə də, sonuncu) əlaqəni də kəsmək istəmirdi, ona görə də divarı taqqıldatdı:

# Конец ознакомительного фрагмента.

Текст предоставлен ООО «ЛитРес».

Прочитайте эту книгу целиком, купив полную легальную версию на ЛитРес.

Безопасно оплатить книгу можно банковской картой Visa, MasterCard, Maestro, со счета мобильного телефона, с платежного терминала, в салоне МТС или Связной, через PayPal, WebMoney, Яндекс.Деньги, QIWI Кошелек, бонусными картами или другим удобным Вам способом.